# (Öz-özünə) yoluxucu xəstəlik yoxdur, uğursuzluq əlaməti yoxdur, bayquş və səfər ayında uğurszuluq yoxdur. Cüzama yoluxmuş xəstədən aslandan qaçdığın kimi qaç

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: (Öz-özünə) yoluxucu xəstəlik yoxdur, uğursuzluq əlaməti yoxdur, bayquş və səfər ayında uğurszuluq yoxdur. Cüzama yoluxmuş xəstədən aslandan qaçdığın kimi qaç.
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) İslamdan əvvəlki cahiliyyə dövrünün bəzi məsələlərindən çəkindirərək, işlərin Allahın əlində olduğunu və hər şeyin Onun əmri və təqdiri ilə baş verdiyini bəyan etmişdir. Bu məsələlər: Birincisi: İslamdan əvvəlki cahiliyyə dövrünün insanları xəstəliyin öz-özünə yoluxduğuna inanırdılar. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəstəliyin bir xəstədən digərinə təbii şəkildə (öz-özünə) keçməsinə inanmağı qadağan etmişdir. Çünki kainatı idarə edən Allahdır, xəstəliyi yaradan və onu aradan qaldıran da Odur və bu ancaq Onun istəyi və təqdiri ilə baş verir. İkincisi: Cahiliyyə dövrünün insanları səfərə və ya ticarətə çıxdıqda quşları havaya buraxardılar, əgər sağa uçsalar, sevinər, sola uçsalar, bədbinləşərdilər və geri qayıdardılar. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) quşlara görə yaranan bu bədbinliyi qadağan etmiş və bunun batil bir inanc olduğunu açıq şəkildə bildirmişdir. Üçüncüsü: Cahiliyyə dövrünün insanları deyirdilər: Bir evin üstünə bayquş qonsa, ev əhlinin başına bir müsibət gələr. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu bədbinliyi qadağan etmişdir. Dördüncüsü: Səfər ayına bədbin yanaşmağı qadağan etmişdir və bu ay qəməri ayların ikinci ayıdır. Həmçinin deyilir ki səfər: mədədə olan xəstəlikdir, mal-qara və insana yoluxur. İddia edirdilər ki, bu yoluxma cəhətdən qotur xəstəliyindən də şiddətlidir. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bu inancı da inkar etdi. Beşincisi: Cüzam xəstəliyinə tutulmuş kəsdən, aslandan uzaq duruldduğu kimi uzaqlaşmaq əmr edilmişdir. Bu, canı qorumaq, salamatlıq istəmək və Allahın əmr etdiyi səbəbləri yerinə yetirməkdir. Cüzam: İnsanın orqanlarını çürüdən xəstəlikdir.

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee